*Səmədova Nailə. Yusif Vəzir Çəmənzəminlinin şəxsi arxivi*
*//Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.14-18.*

UOT: 821.512.162

**Nailə Səmədova,**
*filologiya elmləri doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
e-mail: nailesamadova@yahoo.com

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN ŞƏXSİ ARXİVİ

**Açar sözlər:** *Çəmənzəminli, arxiv, təsvir, sənəd, əlyazma*

***Giriş.*** *Arxiv toplamağı yazıçı mədəniyyətinin meyarı hesab edən böyük ədibimiz Yusif Vəzir Çəmənzəminlinin şəxsi fondu AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Arxivdə yazıçının əsərlərinin əlyazmaları, rus dilinə tərcümə edilmiş əsərləri, məktubları və ona ünvanlanan məktublar, şəxsiyyətinə dair sənədlər, tədqiqat üçün topladığı materiallar, təsviri sənədlər, ailəvi sənədlər, albomlar və lüğətlər, müxtəlif şəxslərin sənədləri, özünün və başqalarının nəşr olunmuş əsərləri saxlanılır.*

Görkəmli yazıçı və dövlət xadimi Yusif Vəzir Çəmənzəminli Azərbaycan ədəbiyyatının və musiqisinin mərkəzi Şuşa şəhərində dünyaya göz açmışdır. Zəngin və səliqəli arxivə sahib olan ədib özünün "Turgenevin yazı üsulu" məqaləsində arxiv yaratmağın zəruriliyini ətraflı izah etmişdir: "Yazıçıların hamısı eyni dərəcədə intizampərvər və səliqəli olmamışlar, bəziləri əsəri bitirdikdən sonra ona dair yazılan planları, konspektləri, qeydləri tələf etmişlər. Bizim Azərbaycan yazıçıları bu barədə daha geridə qalmışlar, bir çoxlarının əlyazmaları belə meydanda yoxdur, arxivi meydana çıxanlar da az olmuşdur. Yalnız Mirzə Fətəli istisnadır, çünki o özündən sonra gözəl və müntəzəm bir arxiv buraxmışdır" [1, s.370].

Y.V.Çəmənzəminlinin 21 saylı arxivində mühafizə edilən sənədlər 900 saxlama vahidindən ibarətdir. Materiallar 1956-cı ildə Respublika Əlyazmalar fonduna (indiki Əlyazmalar İnstitutuna) yazıçının oğlanları Fikrət və Orxan Vəzirovlar tərəfindən verilmişdir.

Arxiv sənədlərinin ilk bölməsinə Çəmənzəminlinin 50-dən artıq hekayəsinin, 7 romanının, 2 pyesinin, 3 oçerkinin, 7 kino-ssenari və librettosunun, 45 məqaləsinin, tərcümələrinin, tərcümeyi-hal, gündəlik və xatirələrinin avtoqraf və çap nüsxələri daxildir. Bu bölmədə həmçinin yazıçının Azərbaycan tarixinə, ədəbiyyatına dair, tarixi şəxsiyyətlər haqqında qeydləri, eləcə də əsərlərinin siyahısı haqqında məlumat yer almışdır. Onu da nəzərə çatdırmaq lazımdır ki, Çəmənzəminli memuar janrının bütün növlərində qələmini sınamış, gündəlik tərtib etmiş, tərcümeyi-hal və xatirələrini qələmə almışdır. Ədibin xatirələri bir neçə aspektdə: XX əsr Azərbaycan memuar ədəbiyyatının kamil nümunəsi kimi [2], Şuşa mühitinin əks olunduğu mənbə kimi [3] tədqiqata cəlb olunmuşdur. Yazıçının memuar janrına aid olan əsərlərinin avtoqraf nüsxələri şəxsi arxivində qorunub saxlanılır.

Arxiv sənədlərinin II bölməsində Çəmənzəminlinin rus dilinə tərcümə edilmiş əsərləri 11 saxlama vahidi altında yerləşdirilmişdir.

III bölməni Çəmənzəminlinin özünün məktubları və ona ünvanlanan məktublar təşkil edir. Məhəmmədə, oğlanları Orxan və Fikrətə yazılan məktublar Azərbaycan dilində, naməlum şəxslərə ünvanlanan məktub isə rus dilindədir. Haşım bəy Vəzirov, Qaibov,

Ələkbərli, Jurbenko, Yurin, Firidun bəy Köçərli, Gülsüm xanım, Lebedinski, Meşşaninov, Orucov, Samoyloviç, Haqverdiyev, Şaruxanov, müxtəlif qurumlar – Azərbaycanı öyrənmə cəmiyyəti, Azərkino, Azərnəşr, Dövlət bədii ədəbiyyat nəşriyyatı Çəmənzəminliyə məktublar ünvanlamışlar.

Nəzərə çatdırmaq lazımdır ki, Çəmənzəminli xatirə dəftərlərinə [4] müxtəlif şəxslərə göndərdiyi məktubların surətlərini köçürmüşdür. Nüseyn Mirzəcamalova, Cahangirə, Mirhəsən Vəzirova yazılan məktublar bu baxımdan üstünlük təşkil edir. Xatirə dəftərlərində Mirhəsən Vəzirova yazılmış altı məktub surəti vardır ki, bunlardan ikisinin Mirhəsən Vəzirova, dördünün isə M.H.-yə göndərildiyi göstərilmişdir. Bu dörd məktubun məzmunundan bəlli olur ki, bunlar da Mirhəsən Vəzirova ünvanlanmışdır.

Arxivdə Yusif Vəzirin atası Məşədi Mirbabanın məktubları üstünlük təşkil edir. 1885-1905-ci illəri əhatə edən məktublar oğlanları Yusif Vəzirə, Mir Əbülhəsənə və başqa qohumlara ünvanlanmışdır. Təxminən 488-ə yaxın məktub Azərbaycan və rus dillərindədir və ailəvi sənədləri təşkil edən VIII bölmədə yerləşdirilmişdir. Bu bölməyə həmçinin Yusif Vəzirin qardaşı Miri Vəzirova ünvanlanan Azərbaycan və rus dillərində yazılmış məktublar da daxil edilmişdir.

IV bölmədə Çəmənzəminlinin şəxsiyyətinə aid sənədlər yer almışdır. Bu bölmədə yazıçının Şuşa Realnı məktəbinin I sinfini bitirməsi, 1923-cü ilədək emalatxanada işləməsi haqqında şəhadətnamələr, I, II, IV siniflərdə oxuduğu zaman gündəlik dəftərçələri, arayışlar, buraxılış vərəqələri, haqq-hesab kitabçaları, vəsiqələr, qəbzlər, təliqələr, müqavilənamələr, ərizələr və digər sənədlər saxlanılır.

Yusif Vəzir Çəmənzəminlinin tədqiqat üçün topladığı materiallar V bölməyə daxil edilmişdir. Müəllif ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi haqqında müxtəlif mənbələrdən materiallar, alim və yazıçıların əsərlərindən qadın məsələsinə aid, Avropa yazıçılarının əsərlərindən qeydlər, atalar sözü, toplamışdır ki, bunların əksəriyyətindən məqalələrini yazarkən istifadə etmişdir.

VI bölməyə Yusif Vəzir Çəmənzəminli haqqında materiallar: "Keçmiş səhifələr" əsəri haqqında Qiyasbəylinin və "1917-ci ildə" ("Studentlər" əsərinin ikinci kitabı) romanı haqqında Ələkbərlinin rəyləri daxil edilmişdir. Foto-şəkillər və Çəmənzəminlinin çəkdiyi rəsmlər VII bölmədə 30 saxlama vahidi altında cəmlənmişdir. Ailəvi sənədlərin yer aldığı VIII bölməyə alqı-satqı kağızı, şəhadətnamə, cehiz siyahısı, ərizə, qəbalə, kəbin kağızları və məktublar daxil edilmişdir. Sənədlər Azərbaycan, rus, ərəb və fars dillərindədir.

Arxivin IX bölməsini albomlar və lüğətlər təşkil edir. Albomların tərtib edildiyi tarix qeyd edilməmişdir. 39 vərəqdən ibarət albomda Yusif Vəzirin çəkdiyi rəsmlər və şeirləri, eləcə də 32 ədəd foto-şəkil vardır. 126 vərəqdən ibarət digər albomda Çəmənzəminli "Günəş", "İqbal", "Sədayi-həqq", "İrşad", "Yeni İrşad", "Kommunist", "Ədəbiyyat qəzeti", "Vışka", "Gənc işçi" və başqa qəzetlərdə, məcmuələrdə dərc edilmiş əsərlərini kəsib yapışdırmışdır. Arxivdə həmçinin rusca-azərbaycanca, rusca-türkcə-latınca, rusca-türkcə lüğətlər də vardır.

X bölmədə müxtəlif şəxslərin – Hümmət Əlizadənin, Vladimir Qordlevskinin, Əhməd Rüfət Əfəndinin, Həsən bəy Zərdabinin, Xəlil İbrahimin və başqa müəlliflərin əsərlərinin əlyazmaları saxlanılır. Əlyazmalar Azərbaycan, özbək, rus və fars dillərindədir. XI bölmədə Azərbaycan, türk, özbək, rus, fransız, ingilis və fars dillərində kitablar, eləcə də rus dilində 9 cilddə ədəbiyyat ensiklopediyası saxlanılır. 333 saxlama vahidi altında cəmlənmiş kitabxanaya Çəmənzəminlinin özünün sağlığında nəşr olunmuş əsərləri ilə yanaşı, Azərbaycan və əcnəbi müəlliflərinin kitabları da daxil edilmişdir. Kitabxana

Yusif Vəzirin maraq dairəsinin geniş və zəngin olduğundan bir daha xəbər verir. Nəşr olunmuş kitabların ilk tarixi 1860-cı, son tarixi isə 1939-cu illərə aiddir. Bu bölmədə həmçinin Azərbaycan və rus dillərində nəşr olunmuş jurnallar, qəzetlər yerləşdirilmişdir. Arxivdə fransız dilində nəşr olunmuş 39 adda kitab da saxlanılır ki, ilk tarixi 1853-cü, son tarixi 1924-cü illəri əhatə edir.

Onu da qeyd etmək lazımdır ki, bəzi sənədlər aidiyyatı üzrə qruplaşdırılmamışdır. Bunlar saxlama vahidi 886-dan, sonuncu saxlama vahidi 900-ə qədər davam edir. Çəmənzəminlinin portfeli, "Altunsaç" əsərinin rus dilində avtoqrafı, Molla Pənah Vaqif haqqında Azərbaycan və rus dillərində topladığı materiallar, istifadə etdiyi əsərlərin Azərbaycan, rus və fransız dillərində siyahısı, "Azərbaycan ədəbiyyatına bir nəzər" əsəri, məktubları, attestatı, diplomu və digər sənədlər, ehtimal ki, arxivə sonradan təhvil verilmişdir.

Yusif Vəzir Çəmənzəminlinin arxivi ədəbiyyatşünas alim Cənnət Nağıyeva tərəfindən təsvir edilmiş və 1999-cu ildə nəşr olunmuşdur [5]. Müəllif ön sözdə arxiv haqqında məlumat verərək şəxsi fondun tərtib özəlliklərini nəzərə çatdırmışdır. Kitabda materiallar üç hissəyə bölünərək təqdim edilmişdir. Çəmənzəminlinin həyat və fəaliyyətini əks etdirən sənədlər: tərcümeyi-hal və xatirələr, romanlar, albomlar, bloknotlar, hekayələr, felyetonlar, məcmuə şəklinə salınmış əsərlər, səhnə əsərləri, oçerklər, kino-ssenarilər, elmi və elmi-kütləvi məqalələr, risalələr, tərcümələr, müxtəlif qeydlər, şeirlər, eləcə də lüğətlər birinci hissəyə daxil edilmişdir. İkinci hissədə Yusif Vəzirin xalq ədəbiyyatına aid əlyazmaları, əsərləri haqqında rəylər, müxtəlif şəxslərə yazdığı məktublar, müxtəlif şəxslərin Yusif Vəzirə ünvanladığı məktublar, müxtəlif şəxslərin biri digərinə yazdığı məktublar, şəxsi sənədlər və arxivdə olan müxtəlif sənədlər təsvir edilmişdir. Yusif Vəzirin çəkdiyi rəsmlər, fotolar, Yusif Vəzirin kitabxanası haqqında məlumat üçüncü hissədə verilmişdir.

Daha öncə qeyd etdiyimiz kimi, Çəmənzəminli tərtib etdiyi xatirə dəftərlərinə müxtəlif şəxslərə yazdığı məktubların surətini köçürərdi. Belə ki, sözügedən dəftərlərə 38 məktub surəti əlavə edilmişdir. Eyni zamanda Muxtar Abdullayev imzalı bir şəxsdən göndərilmiş məktubu Yusif Vəzir rus dilinə tərcümə edərək xatirə dəftərinə köçürmüşdür.

Xatirə dəftərləri Azərbaycan və rus dillərindədir. Azərbaycan dilində yazılan hissə ərəb əlifbasındadır. Bu hissədə yazıçıya ünvanlanan məktublardan əlavə bir neçə əsəri: felyeton, hekayə və şeirləri, topladığı atalar sözü bütünlüklə verilmişdir. Eyni zamanda xatirə dəftərlərində Çəmənzəminlinin bir çox əsərlərinin süjeti, məzmunu və planı da öz əksini tapmışdır.

"Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri" kitabında sənədlər mükəmməl və əhatəli təsvir olunmuşdur. Hətta xatirə dəftərlərində olan felyeton, hekayə, məktublar, eləcə də Çəmənzəminlinin topladığı atalar sözü ayrı-ayrılıqda təsvir olunaraq müvafiq bölmələrə daxil edilmişdir. Sözügedən nəşrdə Yusif Vəzirin kitabxanası – arxivdə olan kitablar əlifba sırası ilə verilmişdir. Bununla belə, kitab kiril əlifbasında nəşr olunduğundan onun latın qrafikası ilə nəşrinə ehtiyac vardır.

***Nəticə.*** *XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Yusif Vəzir Çəmənzəminlinin AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan zəngin arxivi onun həyat və yaradıcılığının öyrənilməsində əhəmiyyətli mənbədir. Burada saxlanılan sənədlər ədibin şəxsi və ədəbi fəaliyyətinin, yaradıcılıq yolunun daha əhatəli və ilkin qaynaqlar əsasında araşdırılmasında tədqiqatçıya yardımçı ola bilər. Bu mənada professor Cənnət Nağıyevanın "Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri" kitabı ədibin şəxsi fondundakı materiallar haqqında ümumi təsəvvür yaradır və hər bir sənədin yazılma tarixini, harada yazıldığını, məzmununu, həcmini, hansı şifrə altında saxlanıldığını aydınlaşdırır.*

**Ədəbiyyat:**

1. Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı: Avrasiya Press, 2005.
2. Səmədova N. Azərbaycan memuar ədəbiyyatı tarixi. Bakı: Nurlan, 2006.
3. Kamranqızı L. Y.V.Çəmənzəminlinin memuarlarında Şuşa mühiti. Bakı: "Şuşa" nəşriyyatı, 2002.
4. Çəmənzəminli Y.V. Xatirələr. AMEA ƏYİ, f. 21, s.v. 182, 183.
5. Nağıyeva C. Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri. Bakı: Örnək, 1999.

***Самедова Наиля***

## ЛИЧНЫЙ АРХИВ ЮСИФА ВЕЗИРА ЧЕМЕНЗЕМИНЛИ

**Резюме**

Юсиф Везир Чеменземинли, обладающий богатым литературным и художественным наследием, является ярким представителем азербайджанской литературы XX века. Его личный архив хранится в Институте рукописей имени Мухаммеда Физули НАНА. В архив входят рукописи произведений писателя, в том числе произведения, переведенные на русский язык, письма самого писателя и адресованные ему, личные документы, материалы, собранные для исследований, фотодокументы, семейные документы, изданные произведения самого автора и других писателей.

Документы в архиве сгруппированы по разделам, а на папке, где хранится каждый документ, указана единица хранения, объем, алфавит и язык, на котором написан документ.

В статье представлена информация о документах, хранящихся в каждом разделе, и отмечены особенности книги Дж.Нагиевой «Описание архива Юсифа Везира Чеменземинли», изданной в 1999 году.

**Ключевые слова:** *Чеменземинли, архив, описание, документ, рукопись.*

***Samadova Naila***

## PERSONAL ARCHIVE OF YUSIF VAZIR CHAMANZAMINLI

**Summary**

Yusif Vazir Chamanzaminli, who has a rich literary and artistic heritage, is an outstanding representative of the 20th century Azerbaijani literature. His personal archive is kept at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. The archive includes manuscripts of the author's works, as well as works translated into Russian, sent and received letters, personal documents, materials collected for research, descriptive documents, family documents,printed works himself and others.

The documents in the archive are grouped by sections, and the folder where each document is stored indicates its storage unit, volume, and language and alphabet.

The article provides information about the documents stored in each section and the features of the book by J.Nagiyeva "Description of the archive of Yusif Vezir Chemenzeminli", published in 1999.

**Key words:** *Chamanzaminli, archive, description, document, manuscript.*

*Redaksiyaya daxil olma tarixi: 18.04.2022*
*Çapa qəbul olunma tarixi: 11.05.2022*

*Filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.*